# ODLAR YURDU UNİVERSİTETİ

**Elmi Şurasının <u>08 oktyabr 2025-ci il</u> tarixli iclasının**

**<u>02 saylı</u>**

**PROTOKOLU**

| | |
|---|---|
| Bakı şəhəri | 08 oktyabr 2025-ci il |
| Elmi Şuranın sədri: | prof. Ə.A.Vəliyev |
| Elmi katib: | dos. S.S.Məmmədzadə |
| İştirak etdilər: | Elmi Şuranın 33 üzvü |

**Gündəlikdə duran məsələlər**

| |
|---|
| **1.** Universitetin nizam-intizam qaydaları haqqında. Fakültə əməkdaşları arasında əmək intizamının vəziyyəti və tələbələrin dərsə davamiyyəti haqqında. |
| **2.** Doktorantura və magistraturada dissertasiya mövzularının elmin aktual problemlərinə həsr olunmasının təmin edilməsi. |
| **3.** Akademik borcların ləğv olunması nəticələri haqqında |
| **4.** Cari məsələlər:<br>**4.1**. Odlar Yurdu Universiteti Magistratura səviyyəsi üçün tədris planlarının müzakirəsi və təsdiqi.<br>**4.2.** Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi ixtisasının açılması ilə bağlı OYU Elmi Şurasının 04.06.2025-ci il tarixli 9 saylı iclasının qərarı ilə yaradılmış İşçi Qrupunun topladığı sənədlərin müzakirəsi və təsdiqi məsələsi.<br>**4.3**. Fənn proqramlarının müzakirəsi məsələsi.<br>**4.4.** "Məktəbəqədər təhsil" proqramının akkreditasiyası ilə əlaqədar olaraq TKTA və OYU arasında informasiya mübadiləsi üçün əlaqələndirici şəxsin təyin edilməsi məsələsi.<br>**4.5.** Odlar Yurdu Universitetində bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat, pedaqoji və diplomqabağı təcrübəsinin təşkili və keçirilməsi qaydalarının müzakirəsi və təsdiqi.<br>**4.6.** Struktur bölmələrin və professor-müəllim heyətinin 2025-2026-cı tədris ili üçün fəaliyyət planının təsdiqi məsələsi. |

**I. Universitetin nizam-intizam qaydaları haqqında. Fakültə əməkdaşları arasında əmək intizamının vəziyyəti və tələbələrin dərsə davamiyyəti haqqında.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdilər:**

Məsələ ilə bağlı Tədris işləri üzrə prorektor **dos. Q.A.Qafarov** çıxış etdi. O, öz çıxışında bildirdi ki, yaxın günlərdə müvafiq qaydalarla bağlı universitetin bütün professor-müəllim heyəti ilə görüş keçirilmişdir. Görüşdə 17 məsələ ilə bağlı müzarikələr aparılmışdır. Eyni zamanda, görüş zamanı həm müəllimlərin, həm də tələbələrin nizam-intizam qaydaları haqda geniş məlumat verilmişdir. Bildirdi ki, bütün bu nizam-intizam qaydaları dekanlar və kafedra müdirləri ilə birgə tərtib edilmişdir. Onlarla birgə 9 bənddən ibarət bir forma hazırlanmışdır və bu forma

əsasında növbəti 15 gün boyunca yoxlamalar aparmağı planlaşdırırıq. Burada məqsəd hər hansı bir müəllimi işdən uzaqlaşdırmaq deyil, boşluqları aşkar etmək və mümkün qədər bu boşluqları aradan götürməkdir. Nəticədə əgər bir kafedranın ümumi əməkdaşlarının 25 faizində nöqsan aşkar edilərsə bu işdə kafedra müdirləri də məsuliyyət daşıyacaqlar.
Dos.Q.A. Qafarov eyni zamanda bildirdi ki, Keyfiyyətin təminatı departamenti ilə birgə "Tələbə məmnuniyyəti" sorğusu hazırlanmışdır və bu sorğuların keçirilməsi ilə həm müəllimlər, həm də dərslərin keyfiyyəti yoxlanılacaqdır. Nəticədə bizim hansı təlimlərə ehtiyacımızın olduğu müəyyən ediləcəkdir. Eynni zamanda, biz tələbələrlə "Açıq mikrofon" günləri də təşkil etməyi planlaşdırırıq.
**Prof. Ə.A. Vəliyev** çıxış edərək bildirdi ki, bu qaydaların məqsədi həm tələbələrə, həm də müəllimlərə universitetin mövcud qaydalarını mənimsətməkdir. Universitetin yaddaş kitabçası mövcuddur və bu kitabça elektron formada universitetin veb-səhifəsində yer almaqdadır. Təklif edirəm ki, bu yaddaş kitabçası çap edilərək bütün tələbələrə paylanılsın.
Təbiət və texnologiya fakültəsinin dekanı **dos. S.T. Məhərrəmova** çıxış edərək bildirdi ki, yeni tələbələr və müəllimlərlə görüş keçirilmiş və qaydalar haqda onlara məlumat verilmişdir. Lakin, buna baxmayaraq bir sıra yeni müıllimlərdə jurnalların yazılması və auditoriyalarda tələbə vəsiqəsinin taxılması ilə bağlı problemlər yaşanmışdır. Eyni zamanda, bildirdi ki, dekanlar tərəfindən universitet qaydaları barədə təlimat hazırlanmış və kafedra müdirlərinə paylanılmışdır.
İngilis dilində tədrisin təşkili fakültəsinin dekanı **A.A.Əliyev** çıxış edərək bildirdi ki, universitetin veb-səhifəsinə nizam-intizam qaydaları yerləşdirilmişdir, lakin, orda bəzi punktların genişləndirilməyə ehtiyacı vardır. Təklif etdi ki, bu qaydalar yenidən nəzərdən keçirilsin, müvafiq dəyişikliklər edildikdən sonra çap edilib tələbələrə paylanılsın.
Elmi Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**

Universitetin nizam-intizam qaydaları haqqında hesabat qəbul edilsin.

**II. Doktorantura və magistraturada dissertasiya mövzularının elmin aktual problemlərinə həsr olunmasının təmin edilməsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdilər:**

Məsələ ilə bağlı Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor **prof. F.S.Məmmədov** çıxış etdi. O, bildirdi ki, hər bir ölkənin öz xarakterinə uyğun prioritet istiqamətləri vardır. İndiki zamanda Azərbaycan üçün prioritet istiqamət təkcə İT sahəsi və süni intellekt deyil, başqa istiqamətlər də sayılır. Əlbəttə ki, seçilən dissertasiya mövzuları günümüzün aktual problemlərinə həsr edilməlidir, eyni zamanda, onlar ölkəmizin prioritet istiqamətləri ilə də əlaqələndirilməlidir. Hesablamamıza görə bu il universitetimizdə 234 magistr dissertasiya mövzusu müdafiə ediləcəkdir.

Riyaziyyat və rəqəmsal texnologiyalar kafedrasının müdiri **prof. B.T.Bilalov** çıxış edərək bildirdi ki, hal-hazırda universitetdə İT üzrə mütəxəssisimiz olmadığı üçün dissertasiya mövzusu verə biləcək, təəssüf ki, mütəxəssisimiz yoxdur. Bizim hal-hazırda elmi seminarlar təşkil edə biləcək və aktual dissertasiya mövzuları təkilf edə biləcək alimlərə ehtiyacımız vardır.

Tədris işləri üzrə prorektor **dos. Q.A.Qafarov** cıxış edərək əlavə etdi ki, xüsusilə magistratura pilləsində dissertasiya mövzularının seçilməsində ciddi problemlərimiz vardır, çünki, mövzu adları təkrarlanmaqdadır. Bu məsələ ciddi nəzarətə götürülməlidir.

Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**

Doktorantura və magistraturada dissertasiya mövzuları barədə təkliflər və iradlar nəzərə alınsın.

**III. Akademik borcların ləğv olunması nəticələri haqqında**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
Aparat rəhbəri prof. H.D.Qəmbərov 2024 - 2025 - ci tədris ilinin yay imtahan sessiyasından qalan akademik borcların ləğvi nəticələri haqqında məlumat verdi. O, qeyd etdi ki, tədris qrafikində dəyişiklik edilməklə Universitet üzrə tələbələrin mənimsəməsi yay imtahan sessiyasında yüksək olmuşdur. Bununla bərabər kredit borcu olan tələbələr də vardır. Kredit borcu olan tələbələr həm də təhsil haqqını ödəməyənlərdir. Bu səbəbdən Elmi Şura qərar qəbul etməlidir.

**Qərar:**
2024-2025 - ci tədris ilinin yay imtahan sessiyasından qalan kredit borcların ləğvinin nəticəsi qənaətbəxş hesab edilsin.

**IV. Cari məsələlər**

**Məsələ 1: Odlar Yurdu Universiteti Magistratura səviyyəsi üçün tədris planlarının müzakirəsi və təsdiqi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirə edilməsini təklif etdi.

**Çıxış etdi:**

Tədris və metodiki işlər departamentinin rəhbəri dos. İ.Rəhimov çıxış edərək şura üzvlərini magistratura səviyyəsi üzrə tədris planları ilə tanış etdikdən sonra müzakirə və təsdiq edilməsini təklif etdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**
Odlar Yurdu Universiteti Magistratura səviyyəsi üçün tədris planları təsdiq edilsin.

**Məsələ 2: Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi ixtisasının açılması ilə bağlı OYU Elmi Şurasının 04.06.2025-ci il tarixli 9 saylı iclasının qərarı ilə yaradılmış İşçi Qrupunun topladığı sənədlərin müzakirəsi və təsdiqi məsələsi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirə edilməsini təklif etdi.

**Çıxış etdi:**

İşçi qrupunun sədri prof. F.S.Məmmədov çıxış edərək “Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi” ixtisasının açılması ilə bağlı İşçi Qrupunun hazırladığı hesabat ilə Şura üzvlərini tanış etdi. Prof. F.S.Məmmədov bildirdi ki, Universitetin maddi-texniki bazası yeni ixtisasın açılması üçün zəruri olan bütün infrastrukturla təmin olunmuşdur. Maddi-texniki imkanlarımız tələbələrin nəzəri biliklərini praktiki vərdişlərlə möhkəmləndirməsinə şərait yaradır. Yeni ixtisas üçün nəzərdə tutulmuş ixtisaslaşdırılmış otaqlar mövcuddur və istifadəyə hazırdır. Universitetdə yeni ixtisas üzrə yüksək ixtisaslı elmi-pedaqoji kadrlar çalışır və bu sahədə tədrisin təşkili üçün yetərli mütəxəssis resursu mövcuddur. İxtisasla bağlı sahədə elmi dərəcəsi və elmi adı olan mütəxəssislər pedaqoji heyətimizdə təmsil olunurlar. Bu sahədə böyük təcrübəyə malik müəllim heyətimiz yeni ixtisasın tələblərinə uyğun tədris prosesini uğurla həyata keçirə bilər. Prof. F. Məmmədov çıxışında bu ixtisasın açılmasının gələcəkdə Odlar Yurdu  Kollecində və qarşılıqlı müqavilə əsasında “MİL” Tam orta ümumtəhsil məktəbində, “BSB” Tam orta İnnovasiyalar məktəbində və eləcə də, ölkə üzrə digər təhsil müəssisələrində pedaqoji resursların gücləndirilməsinə, bu istiqamət üzrə kadrların hazırlanması zamanı ixtisasın peşə kompetensiyalarının nəzərə alınmasına və interaktiv təlim mühitinin formalaşmasına mühüm töhfə verəcəyini vurğuladı. Prof. F.S.Məmmədov “Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi” ixtisasının açılması üçün İşçi Qrupunun hazırladığı sənədlərin müzakirə edildikdən sonra təsdiq olunmasını təklif etdi.

Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**

1. “Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi” ixtisasının açılması üçün İşçi Qrupunun hazırladığı sənədlər təsdiq edilsin.
2. “Riyaziyyat və informatika (Rəqəmsal bacarıqlar) müəllimliyi” ixtisasının açılması üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə müraciət edilsin.

**Məsələ 3:  Fənn proqramlarının müzakirəsi məsələsi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdilər:**
Kafedra müdirləri çıxış edərək bakalavr və magistartura səviyyələri üzrə yeni fənn proqramları haqqında məlumat verdilər. Müzakirə edilən əsas fənn proqramlarının qrif almaları üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilməsini təklif etdilər. Seçmə fənn proqramlarının isə çap edilməsini təklif etdilər.

Müzakirələrdən sonra qərar verildi.
**Qərar:**

1. Elmi Şuraya təqdim edilən əsas fənn proqramları qrif almaları üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilsin.
2. Seçmə fənn proqramları çapa tövsiyə edilsin.

**Məsələ 4: "Məktəbəqədər təhsil" proqramının akkreditasiyası ilə əlaqədar olaraq TKTA və OYU arasında informasiya mübadiləsi üçün əlaqələndirici şəxsin təyin edilməsi məsələsi.**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Məsələ ilə bağlı Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor **prof. F.S.Məmmədov** çıxış etdi. O, TKTA və OYU arasında informasiya mübadiləsi üçün əlaqələndirici şəxs kimi Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri İbrahimova Nigar Bağban qızını təklif etdi. Şura üzvləri müzakirələrdən sonra qərar verir.
**Qərar:**
"Məktəbəqədər təhsil" proqramının akkreditasiyası ilə əlaqədar olaraq TKTA və OYU arasında informasiya mübadiləsi üçün əlaqələndirici şəxs Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri İbrahimova Nigar Bağban qızı uyğun görülsün.

**Məsələ 5: Odlar Yurdu Universitetində bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat, pedaqoji və diplomqabağı təcrübəsinin təşkili və keçirilməsi qaydalarının müzakirəsi və təsdiqi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**

Strateji inkişaf və karyera departamentinin rəhbəri **A.C.Əzimzadə** çıxış edərək bildirdi ki, universitet olaraq bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat, pedaqoji və diplomqabağı təcrübəsinin təşkili və keçirilməsi qaydalarının hazırlanıb təsdiq edilməsinə ehtiyacımız var idi. Biz bu qaydaları hazırlamışıq və araşdırma aparmışıq ki, belə bir detallı formada qaydalar ölkədə yalnız 3 universitetdə mövcuddur, onlardan biri də bu gün təsdiq edilsə bizim universitetdə olacaq. A.C.Əzimzadə Elmi Şura üzvlərini müvafiq qaydalarla tanış etdi və qaydaların müzakirə edilməsini və təsdiq edilməsini təklif etdi.
Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**
Odlar Yurdu Universitetində bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat, pedaqoji və diplomqabağı təcrübəsinin təşkili və keçirilməsi qaydaları təsdiq edilsin.

**Məsələ 6: Struktur bölmələrin və professor-müəllim heyətinin 2025-2026-cı tədris ili üçün fəaliyyət planının təsdiqi məsələsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Keyfiyyət təminatı və Akkreditasiya işləri departamentinin rəhbəri N.B. İbrahimova çıxış edərək bildirdi ki, Universitetdə çalışan struktur bölmə rəhbərləri və professor-müəllim heyəti tərəfindən 2025-2026-cı tədris ili üçün fəaliyyət planları hazırlanmış və departamentə təqdim edilmişdir. Təklif edirəm ki, Struktur bölmələrin və professor-müəllim heyətinin 2025-2026-cı tədris ili üçün fəaliyyət planları təsdiq edilsin.

Şura üzvləri müzakirələrdən sonra qərar qəbul edir.

**Qərar:**
Struktur bölmələrin və professor-müəllim heyətinin 2025-2026-cı tədris ili üçün fəaliyyət planı təsdiq edilsin.

İclasın sonunda Elmi Şuranın sədri prof. Ə.A.Vəliyev Şura üzvlərinə və iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

**Sədr** **prof. Ə.A.Vəliyev**

**Elmi katib** **dos. S.S.Məmmədzadə**